# Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır

## DÖVLƏTİMİZİN BAŞÇISI İLHAM ƏLİYEV TANAP QAZ KƏMƏRİNİN AVROPA İLƏ BİRLƏŞƏN HİSSƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ BİR DAHA BİLDİRMİŞDİR Kİ, BU GÜN DÜNYA MİQYASINDA İKİNCİ BELƏ ÖLKƏLƏR TANIMIRAM Kİ, TÜRKİYƏ VƏ AZƏRBAYCAN QƏDƏR BİR-BİRİNƏ YAXIN OLSUN




**Dövlətimizin başçısı İlham Əliyev bu günlərdə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində bir daha iki dost, qardaş ölkənin birgə səyləri nəticəsində reallaşan layihələrə diqqəti yönəldərək bildirmişdir ki, bu günə qədər apardığımız birgə işlər TANAP-a yol açdı.**

Əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bu günə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilib. Bunun böyük hissəsini - 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistanın, 12 milyon tonunu Qazaxıstanın, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Bir sözlə, Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin açılışı oldu. TANAP Cənub Qaz Dəhlizinin əsas seqmentlərindən biridir. "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib. Artıq TANAP-ın da tam istifadəsi reallaşdı. Cənub Qaz Dəhlizinin növbəti tərkib hissəsi olan TAP-ın icrası başa çatmaqdadır. Bütün bu uğurlar bu əminliyi ifadə etməyə əsas verir ki, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi vaxtında istismara veriləcək.

TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürü kimi dəyərləndirilir. Cənab İlham Əliyev ötən il TANAP-ın istifadəyə verilməsi mərasimində bu fikri böyük inam və qətiyyətlə bildirmişdir ki, bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixi, sabitlik tarixidir.

İki dost, qardaş ölkənin dərin tarixi köklərə malik olması biri-birindən əhəmiyyətli enerji və nəqliyyat layihələrinin uğurlu icrasından da aydın görünür. Möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlər müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə yüksəlib. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sayəsində həyata keçirilən layihələr regionun inkişafında, Avropa və Asiya arasında mühüm enerji, kommunikasiya dəhlizinin yaradılmasında da böyük rol oynayır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Cənub Qaz Dəhlizinin əsas tərkib hissələrindən olan TANAP layihəsi uğurlu əməkdaşlığın parlaq nümunələridir. Bu əminlik də hər zaman ifadə edilir ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərin gerçəkləşməsində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına töhfələr verəcək. Həm Türkiyə, həm də Azərbaycan Prezidentlərinin ölkədə keçirilən prezident seçkilərində qələbələrindən sonra ilk səfərlərini Azərbaycana, yaxud Türkiyəyə etməsi də bu birliyi, ən əsası ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" tezisinin bütün dövrlər üçün aktual olduğunun təsdiqidir.

**"Bizim birliyimizdən çox şey asılıdır"** söyləyən Prezident İlham Əliyev Türkiyə-Azərbaycan dostluğunun sarsılmazlığını faktlar əsasında diqqətə çatdırır. Azərbaycan müstəqilliyini ilk tanıyan qardaş Türkiyə təmsil olunduğu bütün beynəlxalq təşkilatlarda ölkəmizi dəstəkləməklə haqq işimizin müdafiəsi üçün Azərbaycan qədər əzmkarlıq göstərir. Rəsmi dövlət nümayəndələrinin, eyni zamanda, güclü diasporanın Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində göstərdiyi səy qardaş dəstəyi olmaqla türk dünyasının birliyi və həmrəyliyi yolunda atılan ciddi siyasi addımlar hesab olunur.

Hər iki dövləti təmsil edən yüksək səviyyəli nümayəndə heyətinin iştirakı ilə Bakıda və Ankarada keçirilən görüşlər xalqlarımız arasında dostluq və qardaşlığının əbədi, sarsılmaz simvolu kimi yüksək dəyərləndirilir. Son illərdə türk dünyasının birliyi naminə Bakıda keçirilən biri-birindən mühüm və tarixi əhəmiyyətli tədbirlərdə Türkiyənin də ev sahibi kimi iştirak etməsi qardaşlıq rəmzi olmaqla bütün türk dünyasının güclənməsinə yönəldilmiş böyük dəstək kimi dəyərləndirilir.



**"Həm siyasi, həm də iqtisadi, mədəni, hərbi- bütün sahələrdə bizim aramızda ən yüksək işbirliyi, anlaşma var. Gərək elə edək ki, maraqlarımız tam şəkildə təmin olunsun, bizi narahat edən problemlər aradan qaldırılsın, ədalət zəfər çalsın, xalqlarımız rahat yaşasın"** söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, türk dünyası böyük qüvvədir. Bu böyüklük öz möhkəmliyini və yenilməzliyini xalqların birliyi ilə sübut edir. Türkiyə-Ermənistan sərhədlərinin açılmasını nəzərdə tutan protokolun imzalanması və eyni zamanda, ondan sonrakı mərhələdə baş verən hadisələr bütün dünya xalqlarına bəlli etdi ki, Azərbaycan-Türkiyə dostluğu, eyni kökdən qaynaqlanan xalqların əzmi yenilməzdir. **"Ermənistan tərəfindən işğal olunan Azərbaycan torpaqları azad olunmayınca sərhədlərin açılması mümkün deyil"** kimi qərarında israrlı olan rəsmi Ankaranın bu gün də eyni mövqe nümayiş etdirməsi bu qardaşlığın digər xalqlara xas olan əlaqələrindən fərqli olduğunu bir daha bəyan etdi. Dağlıq Qarabağ probleminin həllində bilavasitə Azərbaycanın yanında olmaqla ən yüksək tribunalardan problemin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin vacibliyini bəyan edən rəsmi Ankara münaqişənin həllində vasitəçiliyi həyata keçirməyə hazır olduğunu da bəyan edir. Baxmayaraq ki, işğalçı Ermənistan bunun əleyhinə olduğunu bəyan edir. Türkiyənin Azərbaycanın yanında olmasını birtərəflilik kimi qiymətləndirən işğalçı dövlət bu kimi yanaşmaları ilə ədalət meyarından nə qədər xəbərsiz olduğunu açıqlayır. Bu başqa yazının mövzusu olsa da, bu kimi addımlara Türkiyə və Azərbaycanın vahid mövqedən münasibət bildirmələri birliyin sarsılmazlığını, ən əsası bu həmrəyliyin regionda sabitliyin, təhlükəsizliyin təminatı olduğunu təsdiqləyir. Bir əsas məqamı da qeyd edək ki, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçiləndə cənab İlham Əliyev bu mühüm hadisəni Azərbaycan və Türkiyənin müştərək yeri kimi dəyərləndirmişdir. İki dost, qardaş ölkənin daim vahid mövqedən çıxış etməsi dünyaya nümunə kimi qeyd edilir: **"Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun."**



Hər bir ölkənin inkişafında iqtisadi amilin rolunu nəzərə alsaq, bu gün Azərbaycan və Türkiyənin bu sahədə biri-birindən önəmli uğurlara imza atdığını daha aydın görə bilərik. Ən qüdrətli dövlətlərin iqtisadi inkişafının əsas amili kimi diqqət yetirilən enerji təhlükəsizliyinin təminatında böyük rolu olan Türkiyə və Azərbaycanın gələcəkdə daha böyük layihələrin təşəbbüsçüsü olacaqlarına, maraq doğuracaqlarına inamların tükənməzliyi bu gün də aktuallığını qoruyur. **"Bu onu göstərir ki, biz qarşıya qoyduğumuz bütün məsələləri birgə səylərlə, birgə iradə ilə, Türkiyə-Azərbaycan qardaşlığı əsasında həll edirik"** kimi sözləri ilə bölgədə əməkdaşlığın genişlənməsi üçün yaranan böyük imkanlardan səmərəli istifadəni bütünlükdə dünya dövlətləri arasında əməkdaşlığın genişlənməsi üçün gərəkli hesab edən Prezident İlham Əliyev dövlətlər, xalqlar arasında körpü rolunu oynayan layihələrin hər iki dövlətin siyasi iradəsi və qətiyyəti əsasında gerçəkləşdiyini bildirir. **"TANAP ortaq baxışımızın ən son bəhrəsidir"** söyləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, eyni zamanda, bildirmişdir ki, TANAP, həmçinin qarşıdakı illərdə həyata keçirəcəyimiz yeni layihələrin də müjdəsidir.

Sadalanan uğurlar Azərbaycan-Türkiyə münasibətlərinin bu gününə işıq salmaqla yanaşı, Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolunu da nümayiş etdirir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz qarşıya qoyduğu bütün hədəflərə çatdı. Ölkəmizin həyatında, neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır.

Xəzər hövzəsinin zəngin enerji potensialına malik ölkəsi kimi tanınan və bölgənin lider dövləti statusunu qoruyan Azərbaycan dünya dövlətləri üçün strateji tərəfdaş kimi qazandığı etimadı yeni layihələrin reallaşmasında göstərdiyi qətiyyəti ilə doğruldur. Avropa Birliyinə daxil olan ölkələrin təbii qazla təminatı üçün nəzərdə tutulan neft-qaz boru kəmərlərinin siyasi, iqtisadi əhəmiyyəti, perspektivi ətrafında aparılan müzakirələrdə də Azərbaycan amilinə xüsusi önəm verilir. Enerji təhlükəsizliyinin təminatı üçün alternativ variantlar üzərində müzakirələr aparan mütəxəssislərin qeyd etdiyi kimi, bu sahədə baxışları üst-üstə düşən Azərbaycanla əməkdaşlıq təkcə region, qitə deyil, bütövlükdə dünya dövlətləri üçün əhəmiyyətlidir. Ölkə Prezidenti İlham Əliyev bu fikri xüsusi qeyd edir ki, bəziləri üçün əfsanə kimi görünən layihələri heç bir problemsiz, maneəsiz həyata keçirdik. Bu gün ölkəmizi və bölgəmizi bu layihələrsiz təsəvvür etmək mümkün deyil. Bu layihələr nəinki ölkəmizi gücləndirir, xalqımıza xeyir gətirir. Bir sözlə, Azərbaycan enerji sektorunda öz liderlik keyfiyyətlərini çox açıq şəkildə ortaya qoyur: **"Əgər biz təşəbbüs göstərib 2012-ci ildə Türkiyə ilə birlikdə TANAP layihəsinə imza atmasaydıq, bu gün Cənub Qaz Dəhlizi haqqında kimsə danışa bilərdimi? Bu gün Avropanın enerji təhlükəsizliyini kimsə bizsiz təmin edə bilərdimi? Bunları biz edirik. Nəyə görə? Çünki bu, bizim xalqımıza lazımdır. Bu, bizim dövlətimizi, ölkəmizi gücləndirir və bizim maraqlarımıza xidmət edir."** Cənab İlham Əliyev Azərbaycanın dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolunu əsaslı şəkildə diqqətə çatdıraraq bildirir ki, Cənub Qaz Dəhlizi ölkəmizə əlavə siyasi, iqtisadi, maliyyə imkanları yaradacaq, zəngin qaz resurslarımızın dünya bazarlarına bundan sonra onilliklər ərzində ixrac edilməsini təmin edəcək, valyuta axını artacaq, dayanıqlı inkişafımız daha da möhkəmlənəcək.

**Yeganə Əliyeva,**
***"İki sahil"***